# Elmi-tədqiqat məbədi

Muzey - ədəbiyyat tarixi, maddi və mənəvi mədəniyyət abidələrini komplektləşdirən, saxlayan, öyrənən və nümayiş etdirən elmi-maarif müəssisəsidir. Muzeylər əsasən, elmi-maarifçi, tədqiqat və tədris tipli olur, profillərinə görə isə muzeylər (tarix, ədəbiyyat, incəsənət, texnika muzeyləri) bir-birindən fərqlənirlər. Qeyd etməliyik ki, maddi mədəniyyət nümunələrinin toplanması, işlənməsi və təbliği prosesləri də məhz muzeylər vasitəsilə həyata keçirilir. 1979-cu ildən dünya muzeylərinin fəaliyyətini əlaqələndirmək üçün YUNESKO-nun Beynəlxalq Muzeylər Şurası fəaliyyət göstərir.




*Hər bir xalqın mədəniyyətinin inkişafında, tanınmasında muzeylərin rolu çox böyükdür. Respublikamıza gələn xarici qonaqlar da sənət məbədlərimizlə tanış olmaq üçün ilk növbədə mütləq muzeylərə baş çəkirlər.*

Bildiyimiz kimi, İKOM-un Moskvada keçirilən genişmiqyaslı XI konfransında 18 mayın muzeylər günü kimi qeyd edilməsi qərara alınmışdır. Elə bu tarixdən də başlayaraq, hər il 18 may «Muzeylər günü» kimi qeyd edilir. Dünya miqyasında qeyd edilən həmin gün münasibətilə respublikamızda da müxtəlif tədbirlər planı həyata keçirilir.

Hazırda Azərbaycanda 150-dən çox muzey fəaliyyət göstərir. Bunlardan14-ü tarix, 65-i diyarşünaslıq, 38-i sənətşünaslıq, 34-ü memorial, qalanları isə digər profilli muzeylərdir.

Respublikamızın memorial muzeylərindən biri də Şamil Əzizbəyov küçəsi 67/69-da yerləşən dahi bəstəkarımız Üzeyir Hacıbəyovun ev muzeyidir. Üzeyir bəyin ruhunu yaşadan bu muzey 1975-ci ildən fəaliyyət göstərir.

Fəaliyyət göstərdiyi bu müddət ərzində Üzeyir irsinin qorunması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması üçün muzey əməkdaşlarının, o cümlədən, muzeyin elmi işçilərinin böyük əməyi olmuşdur. Belə ki, yarandığı gündən bu günə kimi muzeyin elmi işçiləri Üzeyir bəyin həyat və yaradıcılığını tədqiq edərək, onun əsərlərini geniş ictimaiyyətə çatdırmışlar.

Muzeyimizin elmi işçilərinin apardığı tədqiqatlar sayəsində, onların mətbuat səhifələrindəki çıxışlarından görürük ki, ictimai siyasi və mənəvi həyatımızın elə bir sahəsi yoxdur ki, Üzeyir bəyin soydaşlarımızı düzgün istiqamətləndirən məna dolu kəlamları, nəcib duyğularla mayalanmış publisistik sözü köməyimizə gəlməmiş olsun.

Bəli, Üzeyir irsinin araşdırıcılarından söhbət açarkən ilk növbədə Mirabbas Aslanov yada düşür.

Mirabbas Seyidağa oğlu Aslanov filoloq, jurnalist, pedaqoji elmlər namizədidir. Uzun müddət Ü.Hacıbəyovun həyatının və jurnalistlik fəaliyyətinin tədqiqi ilə məşğul olmuşdur. Bu haqda bir sıra məqalələr, iki monoqrafiya: «Üzeyir Hacıbəyov – gənclik illəri» (Bakı,1977) və «Üzeyir Hacıbəyov – jurnalist» (Bakı,1985) və «Üzeyir Hacıbəyov gündəlik yazmış olsaydı» elmi-kütləvi kitabını (Bakı,1994) yazmışdır. O, Hacıbəyovun müxtəlif dövrlərdə yazdığı felyetonları toplayaraq «Ordan-burdan» başlığı ilə çap etdirmiş (Bakı,1981), bircildlik «Seçilmiş əsərləri»nin (1985) tərtibçisi olmuşdur. «Üzeyir Hacıbəyov» biblioqrafiyasının (1976, 1985) müəlliflərindəndir.

Üzeyir bəy irsinin tədqiqatçısı kimi, Mirabbas Aslanov müxtəlif vaxtlarda müxtəlif mövzularda mətbuat səhifələrində çıxışlar etmişdir. Biz həmin arxiv materiallarını vərəqləyərkən Mirabbas müəllimin əsl Üzeyirşünas olduğunun şahidi oluruq. Həmin qəzetlərdən bir neçəsini vərəqləyək:

«Azərbaycan müəllimi», 3 aprel 1985, № 27. «Üzeyir Hacıbəyovun məktubları».

«...Üzeyir Hacıbəyovun məktubları yazılma səbəbinə, məzmun və səciyyəsinə görə cürbəcürdür: dost və tanışlara yazılmış şəxsi məktublar, qəzet redaksiyalarına, rəsmi şəxslərə, dövlət idarələrinə göndərilmiş məktublar və satirik əsərlər. Bu məktublar arasında 1913-cü ildə Peterburqdan Hüseynqulu Sarabski və Müslüm Maqomayevə, V.İ.Nemiroviç-Dançenko, D.Şostakoviç, R.M.Qliyer, A.B.Qoldenveyzer, A.B.Kabalevski, V.İ.Muradeli, Leninqrad İncəsənət Tarixi İnstitutunun professoru Yevgeni Maksimoviç Braudoya yazılmış məktublar da var. Həmin məktublar Üzeyir Hacıbəyovun ömür yoluna, mühüm fəaliyyət sahələrinə işıq salır...».

«Ədəbiyyat və incəsənət», 15 noyabr 1985, № 46. «Qüdrətli jurnalist».

«...Üzeyir Hacıbəyovun zəngin jurnalistlik fəaliyyəti müasir mətbuat işçiləri üçün bir məktəbdir ...» cümləsi ilə başlanan bu məqalədə Üzeyir bəyin jurnalistlik fəaliyyətindən söhbət açılır.

«Veçernıy Peterburq», 11 fevral 1986. «Arşın mal alan»ın müəllifinin şərəfinə». Üzeyir bəyin Peterburqdakı təhsil illərindən, «Arşın mal alan»ın yazılma tarixindən xəbər verilir, onun A.K.Qlazunov, V.Kalifati, V.Şerbaçovla dostluq əlaqələrindən bəhs edilir.

«Molodyoj Azerbaydjana», 17 may 1988. «Faktlar danışanda...». Üzeyir bəyin həyat və yaradıcılığından, muzeyin fəaliyyətindən söhbət açılır.

«Dalğa», 14 avqust 1992, № 26. «Üzeyir bəyin son felyetonu». Bu məqalədə Mirabbas müəllim Üzeyir bəyin bənzərsiz üslubundan, onun adi məişət məsələlərində, sadə bir hadisədə «felyeton qığılcımı» tapa bilmək bacarığından söhbət açır. Qocaman jurnalist bildirir ki, Üzeyir bəyin felyetonlarında bu «qığılcım»dan əmələ gələn od-alov çox qüvvətlidir.

«Bakının səsi», 5 oktyabr 1994, № 22. «Bu günü görən Üzeyir bəy». Bu məqalədə deyilir: «... Tarixi şəxsiyyətin böyüklüyü ondan uzaqlaşdıqca daha çox hiss olunur. Dahi Üzeyir Hacıbəyov da bu gün bizə daha əzəmətli görünür, onun müdrik siması bir dövlət adamı, son dərəcə bilici siyasət adamı kimi gözlərimiz önündə canlanır...»

«Naxçıvan», 20 sentyabr 1995. «Koroğlu»nu gördüm». Bəstəkarın 110 illik yubileyi münasibətilə yazılmışdır. Mirabbas müəllim yazır: «Ölməz opera və musiqili komediyaları ilə zövqümüzü oxşayan, insanların bədii estetik tərbiyəsinin formalaşmasında misilsiz xidmətləri olan ulu sənətkar Üzeyir Hacıbəyov təsirli mətbu sözü ilə ictimai həyatın gündəlik problemlərini mütərəqqi tərzdə, demokratik yollarla həll etməkdə mahir idi...».

«Azərbaycan müəllimi», 23 may 1994. «Üzeyir Hacıbəyov – tarixçi». «...Üzeyir Hacıbəyov gənclik çağlarından elmin bir çox sahələri ilə maraqlansa da, tarix elmini daha artıq sevirdi. Şərq xalqlarının tarixinə dair Üzeyir Hacıbəyovun qiymətli əsərləri xüsusi tədqiq olunmağa layiq elmi incilərdir...». Bu məqalədə həmçinin, Üzeyir bəyin Buxara xanlığının və Yaponiyanın müxtəsər tarixi haqqında silsilə məqalələrindən, oçerklərindən söhbət açılır.

«Şəhriyar», 29 sentyabr 1994, № 20. «Füzuli şerinin bəstəkar qardaşı». «...Dahi sənətkar, Füzuli şerinin böyük qardaşı Üzeyir Hacıbəyov istər musiqi yaradıcılığında, istərsə də ədəbi və jurnalistlik fəaliyyətində, Füzuli poeziyasından məharətlə istifadə etmiş, ulu sələfinə Məcnun məhəbbətilə bağlı olmuşdur. «O olmasın, bu olsun», «Arşın mal alan», «Əsli və Kərəm» kimi əsərlərində də Füzuli şerindən faydalanmış, Füzuli kəlamına müraciət etmişdir. O, həmçinin öz qəhrəmanlarının mənəvi aləmlərini, iztirab və sevinclərini də məharətlə açmışdır...».

«Bakı», 7 may 1990. «İki zirvə». P.İ.Çaykovskinin 150 illik yubileyinə həsr olunmuşdur. «...P.İ.Çaykovskinin yaradıcılığı həmişə Üzeyir Hacıbəyovun diqqət mərkəzində idi. Keçmişin ən yaxşı musiqi ənənələrindən, müasir musiqinin problemlərindən söhbət açdığı bütün məqalələrində Çaykovskini xatırlamış, onun yaradıcılığından nümunələr gətirmiş, diqqəti bu əsərlərin ideya-estetik, bədii məziyyətlərinə yönəltmişdir. Üzeyir Hacıbəyov da, Çaykovski də klassik formalara, ahəng aydınlığına, kompozisiya bitkinliyinə, hər cür qəlizliyin əleyhinə çıxmışlar. Məhz belə yaxınlıq sayəsində Çaykovskinin yaradıcılıq irsi Üzeyir bəy üçün doğmalaşmışdır...».

Mirabbas müəllim bir Üzeyirşünas kimi öz yazılarında Üzeyir bəy yaradıcılığına xələl gətirənləri, onun həyat və fəaliyyətinə qara xətt çəkmək istəyənləri də kəskin tənqid atəşinə tuturdu. Aşağıdakı qəzet materiallarında o, bunu bir daha təsdiq edir:

«Dalğa», № 34, 28 sentyabr 1993. «Pis niyyət baş tutmaz». Üzeyir bəyin 1918-1920-ci illərdəki yaradıcılıq fəaliyyətindən bəhs edir.

«Baku», 6 iyul 1978, № 156. «Klassikin həyatından səhifələr».

«Dalğa», 17-23 iyun. «Yanlış da bir naxışdır».

«İmpuls», № 44, 12 noyabr 1999. «Üzeyirşünaslıqda təhriflər».

«Üzeyir bəyin fikirləri bu günkü günlə tam ayaqlaşır...» deyən Mirabbas müəllim «Azerbaydjan» qəzetinin 17 sentyabr 1994-cü il, 58–ci sayında qeyd edir. «...Hələ 1919-cu ildə Üzeyir bəy «Azərbaycan» qəzetinin səhifələrində Qarabağa aid altı məqalə dərc etdirmişdir:

1. «Qarabağ haqqında» (30 yanvar, №101).
2. «Başlanır» (13 fevral, №113).
3. «Belə bir təhlükə gözlənilir» (5 may, №172).
4. «Miralay Qaskelin təklifi» (22 sentyabr, №279).
5. «Qarabağ hadisələrinin xronikası» (24 iyun, №210).
6. «Azərbaycan və Ermənistan arasındakı münasibət» (17 oktyabr, №298). Bundan başqa, Üzeyir bəy öz məqalələrində ölkədə baş verən kadr dəyişikliyi, Milli müdafiə, daxili təhlükəsizlik, parlamentdəki qeyri-sabit iş rejimindən də geniş söhbət açırdı...».



Üzeyir bəyin ev muzeyində bəstəkarın həyat və yaradıcılığının yorulmaz tədqiqatçılarından biri də Səadət Qarabağlı olmuşdur. Səadət xanım özünün «Üzeyir Hacıbəyovun publisistikasında musiqi məsələləri» (Bakı,1997) adlı monoqrafiyasında Üzeyir bəyin həyat və yaradıcılığını geniş oxucu kütləsinə çatdırmışdır.

İşlədiyi müddət ərzində S.Qarabağlı müxtəlif vaxtlarda mətbuat səhifələrində müxtəlif mövzularda çıxışlar etmişdir:

«Azərbaycan müəllimi» qəzeti, 4 may 1985, № 36. «İstedadlı və qayğıkeş pedaqoq». Üzeyir bəyin pedaqoji fəaliyyətindən, onun Azərbaycan professional musiqisinin banisi olmasından bəhs edir. «...Üzeyir Hacıbəyov öz publisistik yazılarında müəllimlər qarşısında mühüm vəzifələr qoyur, onları gənc nəslin təlim və tərbiyəsi ilə ciddi məşğul olmağa çağırırdı. O, özü də bu çağırışa qoşulur, uşaqlara təkcə fənləri öyrətməklə kifayətlənmir, şagirdlərini hərtərəfli, kamil bir vətəndaş kimi tərbiyə edir, onlarda xalqına, vətəninə və ana dilinə məhəbbət aşılayardı, geniş dünyagörüşü yaradardı...».

«Kommunist» qəzeti, № 215, 17 sentyabr 1985. «Səhnəyə gərək usta çıxasan». 30-cu illərdən başlayaraq Üzeyir Hacıbəyov ifaçılıq sənətinin tərəqqisi, Azərbaycan musiqisinin inkişafı, musiqiçi kadrların yetişdirilməsi barədə öz dəyərli fikirlərini bildirir, mülahizə və təkliflərini irəli sürürdü. İfaçılıq sənətinə xüsusilə çox fikir verən Üzeyir Hacıbəyov öz məqalələrində yazırdı: «...Yüksək bədii sənət yalnız o zaman ümumxalq malı ola bilər ki, bu sənətin ən gözəl və ən istedadlı ifaçıları olsun. İstedadlı olmadan isə milli sənətin təmtəraqlı inkişafı da ola bilməz...».

«Həyat» qəzeti, № 56, 21 mart 1991. «Üzeyir bəyin evinə gəlin». «...Üzeyir bəyin Novruz bayramına xüsusi rəğbəti olub, bu bayramı böyük təmtəraqla qarşılayıb. Elə buna görə də bəstəkarın ev muzeyində hər il Novruz bayramı günlərində onun adına layiq bayram süfrəsi açılır, müxtəlif tədbirlər keçirilir, musiqi bayramları təşkil olunur...».

«Azərbaycan gəncləri» qəzeti, 19 fevral 1991 № 121. «Muzeyin təzə inciləri». Həmin illərdə muzeyə gətirilən yeni eksponatlardan söhbət açılır. Üzeyir Hacıbəyovun iki marşının: «Azərbaycan marşı»nın və «Azərbaycan milli marşı»nın əlyazmaları, bu marşların xor üçün işlənmiş variantının əlyazması, 3 kvartet, «Bahar nəğməsi» mahnısı, «Rəqs» (eskizlər), «İntermesso», «Çənlibel xoru» kimi əsərləri muzeyin qiymətli tapıntılarındandır.

«Respublika» qəzeti, 7 dekabr 1993. «Üzeyir bəy də döyüşürdü – nəğmələri ilə». Üzeyir bəyin II Cahan müharibəsi illərindəki fəaliyyətindən, onun hərbi ruhda yazdığı mahnılarından söhbət açılır. «Şəfqət bacısı», «Çağırış», «Zəfər bizimdir», «Vətən və cəbhə» kantatası və başqaları bu tipli əsərlərdəndir.

Muzeyimizin daha bir tədqiqatçısı Namiq Abdullayev olmuşdur. «Üzeyir Hacıbəyovun estetikasında xəlqilik problemi» adlı namizədlik dissertasiyasında N.Abdullayev göstərir: «...Tədqiqat işində Üzeyir Hacıbəyovun publisistikasında incəsənətin sosial təsiri, sənətkarın vətəndaşlıq mövqeyi, musiqinin ən yüksək amalı – xalqın mənafeyinə xidmət etmək haqqında məsələlər qoyur və onlar demokratik baxımdan həll olunurdu. Bu baxışlar məzmun və forma etibarı ilə dərin xəlqiliyə malik olan 5 opera və 3 operettanın ideya-estetik əsasını təşkil edir. Operalarında bəstəkar maarifçi realizm mövqeyində durursa, musiqili komediyalarında tənqidi realizm ruhu hökm sürür. Üzeyir Hacıbəyov musiqi estetik konsepsiyasında 30-40-cı illərdə ideyalılıq, xəlqilik, realizm, demokratiklik, vətəndaşlıq, milli və beynəlmiləlçilik, ənənə və novatorluq məsələləri ardıcıllıqla tədqiq olunur. Xəlqilik problemi Üzeyir bəyin yaradıcılığında öz parlaq təcəssümünü tapmışdır...».

Üzeyir bəy irsinin tədqiqatçısı kimi mətbuat səhifələrindəki çıxışlarında o, göstərir: «Baku» qəzeti, 11 dekabr 1990, №282. «Muzeydə Üzeyirşünaslıq dərsi». «... Üzeyirşünaslıq kursu» mühazirəsinə hər gün onlarla yuxarı sinif şagirdi gəlir. Uşaqlarla dərsi ilk növbədə Mirabbas müəllim aparır. O, uşaqlara Üzeyir bəyin pedaqoq, jurnalist, tərcüməçi, redaktor, tarixçi, dramaturq kimi fəaliyyətindən söhbət açır. O, öz mühazirələrini sənədlərə, arxivlərə əsaslanaraq aparır. Kursun məqsədi- uşaqlarda gözəlliyin, əxlaqın, vətənə məhəbbət hissinin yüksəldilməsidir...».

«Vışka» qəzeti, 17 sentyabr 1985, №215. «Bəstəkarın kitabxanası». «...Üzeyir bəyin ev muzeyində qorunan kitablar içərisində dünya klassik ədəbiyyatı, səyahət haqqında ədəbiyyat, fəlsəfi əsərlər, əxlaqi, siyasi-iqtisadi əsərlər, musiqiyə aid həm nəzəri, həm də not nəşrlərinə rast gəlmək mümkündür. Bu kitabları vərəqlədikcə,

onların bəzi səhifələrində Üzeyir bəyin öz əlləri ilə yazdığı qeydləri görmək mümkündür...».

«Baku» qəzeti, 21 dekabr 1983. «Çoxdan gözlənilən nəşr».

Azərbaycan Elmlər Akademiyasının «Arxitektura və incəsənət» şöbəsinin «İşıq» nəşriyyatı tərəfindən Ü.Hacıbəyovun «Leyli və Məcnun» operasının 75 illiyi münasibəti ilə nəfis şəkildə nəşr edilən partiturasından söhbət açılır.

«Vışka» qəzeti, 16 fevral 1989, №40. « «Koroğlu» operası haqqında monoqrafiya». Bu yazı sənətşünaslıq elmləri namizədi İzabella Abezqauzun «Üzeyir Hacıbəyovun «Koroğlu» operası» adlı monoqrafiyasına həsr edilmişdir. Tədqiqatçının əsas məqsədi onu göstərməkdir ki, Üzeyir Hacıbəyov Azərbaycan folkloru və Avropa ənənələrindən nə götürmüşdür və Avropa mədəniyyətinə, Avropa ənənələrinə nə vermişdir? Bu monoqrafiyada müəllif, həmçinin, Üzeyir bəyin melodiya, ritm, sintaksis və formalarındakı tapıntıları da nəzərə çarpdırır...

Üzeyirşünaslıqda yaddaqalan daha bir imza Sərdar Fərəcovundur.

Fərəcov Sərdar Fərəculla oğlu (1957) – bəstəkar, ADK-nı (1982) və oranın aspiranturasını (1988) bitirmişdir. 1984-cü ildən Üzeyir Hacıbəyovun ev muzeyində işləyir. Üzeyir Hacıbəyovun məlum olmayan və yarımçıq qalmış əsərlərini tədqiq, yenidən redaksiya və aranjeman etmişdir. Hacıbəyovun «Azərbaycan» marşı, «Milli marş», «Bahar nəğməsi», «Simfonik rəqslər», «Dörd kvartet», «Süita» və s. əsərləri Sərdar Fərəcov tərəfindən tədqiq olunmuşdur. Bir sıra simfonik əsərlərin müəllifidir. Üzeyir bəyin xatirəsinə xor üçün konsert yazmışdır.

Bütün bunlardan başqa, sonrakı illərdə bəstəkarın baş redaktorluğu ilə bir neçə kitabı da işıq üzü görmüşdür. Bunlar Üzeyir bəyin 120 illik yubileyi münasibətilə nəşr etdirdiyi «Komediyalar və yumoristik miniatürlər» (Bakı, 2005) və «Vətən, Millət, Ordu» (Bakı, 2005) kitabları, həmçinin «O olmasın, bu olsun» operettasının partiturasıdır (Bakı, 2005).

Sərdar müəllimin mətbuat səhifələrindəki çıxışları da müxtəlif mövzuları əhatə edir: «Ədəbiyyat və incəsənət» qəzeti, 6 fevral 1987, №6. «Tar və onun tədrisi». Bu tənqidi yazı, musiqi müəllimi Xalid Qədirovun tarın təkmilləşdirilməsinə dair verdiyi təklifə cavab olaraq yazılmışdır. Müəllif yazır: «...Tarı öz kökündən ayırıb, gitara kökünə uyğunluq təklifi yersizdir, tarın inkişaf xəttini onun özündə axtarmaq daha məqsədəuyğundur...».

«Ədəbiyyat və incəsənət» qəzeti, 14 iyun 1989, №28. «Hacıbəyovun iki marşı». Üzeyir bəyin 1919-cu ildə yazdığı «Azərbaycan milli marşı» və «Azərbaycan marşı»na həsr edilmişdir. Bu marşlar Üzeyir bəyin bəstələdiyi ilk sərbəst nümunələridir.

«Mədəniyyət» qəzeti, 21 mart 1991, №21. «Naməlum mahnı».

Üzeyir bəyin ev-muzeyində qorunub saxlanılan, bəstəkarın yarımçıq qalmış «Bahar nəğməsi» mahnısının əl yazısına həsr edilmişdir.

«Xalq» qəzeti, 12 yanvar 1999. «Üzeyir bəyin əsərləri talan edilir». Bu məqalədə Üzeyir bəyin «Azərbaycan xalq musiqisinin əsasları» adlı elmi əsərinin adını dəyişərək «Türk musiqisinin kompozisyon təhlil və makam nəzəriyyatı» başlığı ilə nəşr etdirmiş və müəllif kimi öz adını göstərən Şənel Özaldından bəhs edilir. Müəllif yazır: «...Öz həyasızlığına məftun olan bu üzdəniraq alim, nəinki Üzeyir bəyin elmi müddəalarını, hətta onun gətirdiyi musiqi sitatlarını belə digər musiqi sitatları ilə əvəz etməyi özünə rəva bilməmiş, təkcə Üzeyir bəyin adını çıxarmaqla əsəri tam «özəlləşdirmişdir...»».

«Xalq» qəzeti, 16 mart , 2001, №60. ««Koroğlu»' zirvəsi fəth olunmadı».

Bu yazıda yenidən səhnəyə qoyulan «Koroğlu» operasında müxtəlif obrazlar yaratmış iştirakçıların uğursuz çıxışlarından bəhs edilir.

Yarandığı 30 ildən çox bir müddətdə muzeyin elmi işçiləri tez-tez mətbuat səhifələrində çıxışlar etmiş, Ü.Hacıbəyovun həyat və yaradıcılığı haqqında oxucu kütləsinə geniş məlumat vermişlər:

N.Annaroza - «Üzeyir Hacıbəyov», «Xəzər dənizçisi» qəzeti, 25 mart 1981, № 23; «Koroğlu» operasının yubileyi», «Baku» qəzeti, 12 mart 1987; «Parlaq bir ömrün yadigarları», «Bakı» qəzeti, 17 may 1983, № 114 və s.

F.Terequlov – «Yubiley sərgisi», «Bakı» qəzeti, 17 oktyabr 1984, № 241; «Kəndə hamilik», «Kommunist» qəzeti, 25 oktyabr 1985, № 247 və s.

R.Əliyeva – «Dahi bəstəkara ehtiramla», «Mədəniyyət» qəzeti, 27 fevral 1993, №9; «Üzeyir bəyin xatirəsinə», «Mədəniyyət» qəzeti, 24 may 1991, № 20; «Dahi bəstəkarın ruhunu yaşadan orkestr», «Xalq» qəzeti, 4 iyun 2001, № 248 və s.

A.Qasımova – «Musiqi sərvətimizə qayğı», «Ədəbiyyat və incəsənət» qəzeti, 16 mart 1984, № 11 və s.

N.Enaliyeva – «Tixon Xrennikov Üzeyir Hacıbəyovun ev muzeyində», «Baku» qəzeti,

30 yanvar 1982, № 25 və s.

S.Mirzəyeva – «Musiqi günləri», «Molodyoj Azerbaydjana», 22 avqust 1987, № 25 və s.



N.Sultanova – «Üzeyir bəyi anarkən», «Azərbaycan müəllimi» qəzeti, 26 yanvar 1983, № 7 və s.

G.Ələsgərova –«Muzeyin yeni eksponatları», «Xalq» qəzeti, 18 sentyabr 1998, № 251; «Ev muzeyində yubiley sərgisi», «Xalq» qəzeti, 15 sentyabr 2002, № 210; «Yubileyə töhvə», «Azərbaycan mədəniyyəti və incəsənəti» qəzeti, 16 sentyabr 2005, №35.

Bəs hazırda dahi bəstəkarın ev muzeyinin elmi fəaliyyəti nədən ibarətdir?

Hal-hazırda muzeydə elmi katib Təranə Həsənovanın rəhbərliyi altında bir qrup elmi işçi çalışır: S.Quliyeva, F.Allahverdi, Y.Neymətli, T.İbişov. Onlar yorulmadan bəstəkarın həyat və yaradacılığına dair materiallar toplayır, tərcümələr edir, elmi mövzular üzərində işləyirlər. Elmi işçilərimiz arxivlərdən, əlyazmalar fondundan, kitabxanalardan bəstəkarın həyat və yaradıcılığı ilə bağlı materialları toplayır, onun əsərlərini tədqiq edir, kompüterdə nota köçürürlər, müxtəlif mövzularla mətbuat səhifələrində çıxışlar edirlər.

T.Həsənova – muzeyin elmi katibi – «Üzeyir Hacıbəyov və Azərbaycan kinosu», «Kino qəzeti, 8 iyun 2005, №19; «Ev muzeyi müqəddəslərin xatirəsidir», «Respublika» qəzeti,

20 noyabr 2005, №269; «Bir daha məşhur komediya barədə», «Kino» qəzeti, 5 may 2006, №16; «Üzeyir Hacıbəyovun ev-muzeyi-30», «Musiqi dünyası» jurnalı, 2006, №1/2; «Bu da Üzeyir bəyin təşəbbüsü olub», «Mədəniyyət» qəzeti, 12 avqust 2006, №32; «Koroğlu» dünəndən bu günə», «Mədəniyyət» qəzeti, 20 aprel 2007 və s.

S.Quliyeva – muzeyin böyük elmi işçisi – «Sənətimizin vüqarı», «Mədəniyyət» qəzeti,

01 noyabr 2005, №36; «Xalq yaradıcılığına bağlı ölməz sənətkar», «Günay» qəzeti,

17 sentyabr 2005, №37; «Xalq dastanı «Koroğlu»nun opera və kinoda təcəssümü», «Kino» qəzeti, 30 noyabr 2006, № 37; «Üzeyir irsinin qoruyucusu», «Mədəni-maarif» jurnalı, 2006, №10; «Xalqı oyanışa səsləyən «Koroğlu»», «Azərbaycan müəllimi» qəzeti, 27 aprel 2007, №15 və s.

F.Allahverdi – muzeyin kiçik elmi işçisi – «Bəstəkarlar İttifaqının qurultayı», «Sənət» qəzeti, 15 sentyabr 2005, №18; «Ustad dərslərindən qayıdan yaşıdlarımız», «Kino» qəzeti,

12 avqust 2006, № 29 və s.

Muzeyimizdə tez-tez bəstəkarın həyat və yaradıcılığına həsr edilmiş tematik mühazirələr oxunur, xatirə gecələri keçirilir, bəstəkarın əsərlərinin yubileylərinə həsr edilmiş sərgilər təşkil edilir. Bütün bu işlər məhz muzeyin elmi işçilərinin səmərəli əməyi sayəsində həyata keçirilir.

Bildiyimiz kimi, 2005-ci ildə bəstəkarın 120 illik yubileyi respublika səviyyəsində təntənəli surətdə qeyd edildi. Bu münasibətlə muzey əməkdaşları tərəfindən bəstəkarın 2 kitabı da işıq üzü görmüşdür. Bunlardan birincisi «Komediyalar və yumoristik miniatürlər», ikincisi isə «Vətən, Millət, Ordu» adlanır.

«Komediyalar və yumoristik miniatürlər» adlı kitabda bəstəkarın yaratdığı komediyalar, yumoristik miniatürlər və felyetonlar toplanmışdır. Üzeyir bəyin əsərlərinin ilk dəfə latın qrafikası ilə nəşr olunduğu bu kitab inanırıq ki, həm respublikamızda, həm də xarici ölkələrdə yaşayan həmyerlilərimizin, əsasən də gənc nəslin bədii zövqünün inkişafında mühüm rol oynayacaq.

Kitabın tərtibçisi Uzeyir Hacıbəyovun ev-muzeyinin direktoru, bəstəkar Sərdar Fərəcov, redaktoru isə muzeyin əməkdaşı Təranə Həsənovadır.

«Vətən, Millət, Ordu» adlı kitab isə Üzeyir bəyin vətənpərvərlik mövzusunda yazdığı mahnıları əhatə edir. Bundan əlavə, bu kitabda bəstəkarın 1917-1942-ci illər ərzində yaranan və ilk dəfə nəşr olunan mahnıları da var.

Kitabın işıq üzü görməsində muzeyin direktoru Sərdar Fərəcovla yanaşı, muzeyin əməkdaşları Nərminə Kərimova, Firudin Allahverdi və Yavər Neymətlinin də əməyi az olmamışdır.

Muzey əməkdaşlarının əməyi bununla bitmir. Belə ki, 2005-ci ildə muzeyin ekspozisiya şöbəsinin əsaslı təmirindən sonra ekspozisiya zallarının yenidən qurulması üçün muzeyin ekspozisiya şöbəsinin müdiri Gülnarə Ələsgərova, muzeyin elmi katibi Tərənə Həsənova və muzeyin böyük elmi işçisi Sevinc Quliyeva tərəfindən muzeyin yeni mövzu-ekspozisiya planı hazırlanmışdır. Bu plana əsasən, ekspozisiya zallarının quruluşu yeniləşmiş, muzey yeni eksponatlarla, qiymətli foto və sənədlərlə zənginləşmişdir...

Bəli, muzey fəaliyyətdədir... Bu isə o deməkdir ki, muzeyin elmi işçiləri Üzeyir bəyin irsini öyrənməkdə, axtarışları daim davam etdirməkdədirlər.

**Təranə HƏSƏNOVA,**
**Üzeyir Hacıbəyovun ev-muzeyinin elmi katibi**